# SAZBƏND

***Ozan-aşıq sənəti uludan-ulu, qədimdən qədimdir. Xalq bu sənəti özü yaratmış, onu zaman-zaman yaşatmış, urvatlı tutmuşdur. Dədə Qorquddan üzü bəri saz toy-mağarlarımızın, şənliklərimizin bəzəyi olmuş, insanlara könül xoşluğu bəxş etmiş, onlara ruhi qida vermişdir.***

***Saz türk dünyasının ən qədim milli musiqi aləti olub, xalqımızla bir doğulmuşdur. Mənim fikrimcə, saz bütün musiqi alətlərinin anasıdır.***

Aşıq sənəti xalqımıza çox qüdrətli saz-söz sərrafları, azman sənətkarlar, sinədəftər ustadlar bəxş etmişdir.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov çox haqlı olaraq demişdir ki, əgər Azərbaycan xalqının incəsənət aləmində heç bir nümayəndəsi olmasaydı, təkcə Ədalətin sazı ilə dünya mədəniyyəti meydanına çıxa bilərdik.

Aşıq sənətinin Dədə Qorqud, Yunus İmrə, Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şəmşir kimi görkəmli nümayəndələri olmuşdur.

"Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qandal Nağı", "Qaçaq Tanrıverdi", "Əsli və Kərəm", "Şah İsmayıl", "Qurbani", "Abbas və Gülgəz", "Aşıq Qərib və Şahsənəm", "Valeh və Zərniyar", "Tahir və Zöhrə", "Alı xan və Pəri xanım" kimi Azərbaycanın ölməz qəhrəmanlıq və məhəbbət dastanları vardır. Bu klassik dastanlarımızın hər biri qiymətli sənət incisi olub xalqımız və aşıqlarımız tərəfindən günü bu gün də sevilə-sevilə yaşadılır.

"Kitabi-Dədə Qorqud" eposundan bizə məlumdur ki, Dədə Qorqud Oğuz bəylərinin qəhrəmanlığına, gözəllərin vəsfinə tərifi öz qopuzu ilə demişdir. "Koroğlu" dastanından oxuyuruq ki, Koroğlu döyüşlərə həmişə Misri qılıncla, telli sazla getmişdir. Kərəm Əslisinə, Qərib Şahsənəminə, Abbas Gülgəzə öz məhəbbətlərini sazla demişlər.

Bizim Qazax mahalının İncə dərəsində şerlə-sənətə, sazla-sözə ilahi bir sevgi vardır. Yaşından, sənətindən asılı olmayaraq bu yerin-yurdun havasından udub, suyundan içənlər arasında söz deməyən, saz çalmayan az adam tapılar. İncəlilər ağır yığnaqlı, sinələri nağıllı-dastanlı, şirindilli, xoş avazlı, telli sazlı Aşıq Avdı, Aşıq Cəlal, Aşıq Sadıq, Aşıq Yəhya, Aşıq Kərəm məclislərini çox yaxşı xatırlayırlar. "Kərəmi", "Dilqəmi", "Ruhani", "Misri", "Cəlili", "Sarıtel", "İncəgülü", "Zarıncı", "Yurd yeri", "Dübeyti", "Qaraçı", "Şərili", "Mansırı" və başqa havalar şənliklərimizin yaraşığı, məclislərimizin bəzəyi olmuşdur.



O da gözünü dünyaya açandan elində-obasında - İncə dərəsində saz görmüş, onun sirli-sehrli ovsununa düşmüşdür. Saz çalıb-oxumağı el aşıqlarından öyrənmişdir.

Söhbət Qazağın Aslanbəyli kəndindən olan sazbənd - aşıq İkram Nəsibovdan gedir. Mən də görüşüb, söhbətləşdim. Ona sazbəndlik sənəti barədə suallar verdim və maraqlı cavablar aldım.

***-Usta, necə oldu ki, siz aşıqlığı yox, sazbəndlik sənətini seçdiniz?***

-Özün bilirsən ki, bizim İncə dərəsində saz çalan, söz qoşan çoxdur. Məclislərimizi, yığıncaqlarımızı sazla keçiririk. Ona görə də mən aşıq sənətini yox, sazbəndliyi özümə peşə etdim. Qardaşım Kərəm isə aşıqlıq sənətini seçdi.

Haşiyə: Aşıq Kərəm İncəli sənət dərsini Türk dünyasının böyük sənətkarı Kamandar Əfəndiyevdən almışdır. Aşıq Kərəm uzun illər Qazax rayon mədəniyyət şöbəsində çalışmış, el şənliklərində, dövlət tədbirlərində və bayramlarda, toy-mağarlarda çalıb-çağırmışdır. Öz qabiliyyəti və istedadı ilə hamının rəğbətini qazanmışdır.

Aşıq Kərəm 1988-ci ildə Moskvada Azərbaycan Mədəniyyəti ongünlüyündə iştirak etmiş, 1989-cu ildə yenə Moskvada keçirilmiş Dünya Xalqlarının Folklor festivalında ozan sənətimizi layiqincə təmsil



etmiş və festivalın laureatı olmuşdur.

Heyf ki, vaxtsız əcəl onu ömrünün kamilləşdiyi, sənətinin çiçəkləndiyi bir dövrdə 1995-ci ildə 50 yaşında sıralarımızdan aparmışdır. Allah ona rəhmət eləsin. Bu gün aşıq Kərəmin sazı, sözü yaşayır. Oğlanları Valeh və Süleyman atalarının sənət yolunu davam etdirirlər.

İndi qayıdaq sazbənd İkram Nəsibovla söhbətimizin üstünə.

***-Usta, sazbəndlik sənəti ilə nə vaxtdan məşğul olursan?***

-Lap gəncliyimdən könlümü bu sənətə bağlamışam. Zərgər dəqiqliyi sevən incə bir sənətdir. Cürə, tavar, ana sazlar düzəldirəm. "Bəsləsən atlas olar tut yarpağından" deyib aqil babalarımız. Mən isə deyirəm; "Bəsləsən yaxşı saz olar tut ağacından". Özü də güney tərəfdə bitən tut ağacından əla saz çıxır. Çünki, güney tərəfdə bitən tut ağacında nəmişlik az olur. Sazın çanağı, sinə qapağı düyünsüz tutdan, qolu (biləyi) və burmancları isə qoz (ceviz) ağaclarından hazırlanır. Sazın təzənəsi mütləq gilas ağacından olmalıdır.

Sazbənd İkram Nəsibov Stalin repressiyası dövründə anadan olmuşdur. Dünyanın hər üzünü görüb. Düzəltdiyi sazlar uzun illərdir ki, toy-mağarlarımızın, şənliklərimizin yaraşığıdır. O yenə də yorulmaq bilmədən gənclik eşqi, həvəsi ilə işləyir. Qədim el sənətini yaşadır. Ona yeni nəfəs verir, üstəlik gənclərə də öyrədir. Onu da deyim ki, İkram Nəsibov qardaşı rəhmətlik aşıq Kərəmlə yaşadıqları Aslanbəyli kəndində saz dərnəyi təşkil etmiş, saz sənətinin incəliklərini gələcək nəslin nümayəndələrinə öyrətmişlər. İkram kişinin oğlanları Zahid və Ziyad artıq saz bağlamağı bacarırlar.

Sazbənd İkram Nəsibovla söhbət etdikcə, yadıma Xəstə Qasımın sözləri düşür:

*Usta, məni gözlərinə fəda qıl,*
*Səndən saz istərəm, amma saz ola.*
*Dindirəndə imran dillə danışa,*
*Şeyda bülbüllər tək xoş avaz ola.*

**K.KAZIMLI**